

*Rafiq MUSA*

# QARABAĞ AZƏRBAYCANDIR

**Əzizim Jalə xanım! Yəqin ki, Sizə ünvanladığım şeir yadınızdadır. Şeirdə hər bəndin sonu aşağıdakı sözlərlə bitirdi: "Sən danış qələbədən. Mən yeni dastan yazım". Siz efirdə zəfər qələbəsini səsləndirdiniz, mən də söz verdiyim kimi dastanımı yazdım.**

**Müəllif.**

Yadındamı o günlər,
Ümid dolu o yazım?
Sən danış qələbədən,
Mən yeni dastan yazım.

Bu sözlərlə bitirdi
Sənə yazdığım şeir.
İndi mənə qulaq as,
Gör ürəyim nə deyir!

Son zəfərdən danışdın
Sən xalqının adından.
Həyəcanlı o anın
Çıxa bilməz yadımdan.

O gün teleekranda
Günəş kimi alışdın.
Otuz il gözlədiyim
Qələbədən danışdın.

Qələbə müjdəsiylə
Sevindirdin hər kəsi.
Sən qələbə müjdəli,
Mən sözümün yiyəsi.

Yadımdadır o illər,
Şuşa qan ağlayırdı.
Düşmənin haqsızlığı
Qəlbimi dağlayırdı.

Şuşa alov içində,
Yanırdı qayam, daşım
Düşmənlə üz-üzəydi
Mənim əsgər qardaşım.

Döyüşlər ağır idi
Arxalıydı köpəklər
Qanlı döyüş gedirdi:
Bir nəfərə yüz nəfər

Mərd-mətin dayanmışdı
Şuşa- qəhrəman şəhər.
Şuşa qan ağlayırdı
Od tutmuşdu bu səhər.

Axı biz neyləmişdik?
Üzmü döndərdi fələk?
Nə bir xəbər var idi,
Nə gəlirdi bir kömək.

Telefonçu qızın da
Üzülmüşdü ümidi.
Telefonlar susurdu
Görən səbəb nə idi?

Hərdənbir gələn kömək
Yetərincə deyildi.
Qeyrətimiz tükənmir,
Silahlar tükənirdi

Kömək göndərən kəslər
Telefonda susurdu.
Cavab verən yox idi,
Səs gəlirdi.. du,du,du...

Ay Allah, telefonda
Niyə cavab verən yox?
Bu qarışıq dünyada
Haqsızlığı görən yox.

Şuşa sanki batırdı
Bu qızın göz yaşında
Hıçqırıb ağlayırdı
Bu sevilən yaşında.

Top tüfəngin səsinə
Şuşa silkələnirdi.
Bu ağrılar, acılar
Qıza ağır gəlirdi.

Arxalı it qurd basar,
Düşmənlər qana həris.
Faşistdən də betərmiş
Qana susamış iblis.

Hər tərəf od içində,
Daş daş üstə qalmadı
Telefonçu qızdan da
Xəbər verən olmadı.

Uzun müddət susmadı
Topun, tüfəngin səsi.
Dağdan, daşdan gəlirdi
Qaçqın köçkün naləsi.

Aradan illər keçdi
Düşmən çırası söndü.
Qundaqda qaçqın düşən
Tanklarla geri döndü.

Ərənlərim düşmənin
Başına od ələdi.
Yağı düşmən diz çöküb,
Ondan aman dilədi.

Bu gün yağı düşmənin
Yadından çıxıb adı.
Başını itirənlər
Başının hayındadır.

Burda hər bir qayanın,
Hər daşın öz adı var.
Şuşanın yiyəsidir
Dağ ürəkli oğullar.

Ağrı-acılı günlər
İndi qalıb arxada.
Yeni həyat qaynayır
Qarabağda, Şuşada.

İndi gəzir dillərdə
Qələbənin sorağı.
Şuşada dalğalanır
Azərbaycan bayrağı.

Qisas sabaha qalmaz,
Qisas aldı bu torpaq.
Atlı gələn düşməni
Atdan saldı bu torpaq.

Ər oğullar qayatək
Bu torpağa sipərdi.
Mərdi olan bu xalqın,
Bu torpağın nə dərdi?

Qurban olum mən sizə,
Ürəyim dönüb dağa.
Qarabağım başlayıb
Yenidən yaşamağa.

Hər kəs qayıdıb gəlib
Sevimli Şuşasına.
Bu dağlar diyarına,
Bu qartal yuvasına.

Sevincini bölüşür
Öz millətim, öz qanım.
Görən, harda qalıbdı
Telefonçu o xanım?

Bir zaman telefonda
Susanları qınadı
Telefonçu o gözəl
Bəlkə indi anadı.

Bəlkə onun da oğlu
Döyüşən əsgər olub
Bu torpağa, bu yurda
Dağ olub, sipər olub

Bəlkə indi oğlunu
Basıbdır sinəsinə
Bəlkə oğlu yüksəlib
Şəhidlik zirvəsinə?

Yağı düşmən bir zaman
Bu yerdə yallı getdi.
"itqovanla" qovuldu
Ayağı nallı getdi.

İndi Cıdır düzündə
Yallı gedir ərənlər.
Bu günə alqış deyir
Qələbəni görənlər.

Demə Müsyö Jordan da
Qoşulubmuş iblisə
Paris yenə dağılıb
Qayıdıbdır Parisə.

Öz yiyəsi yoxdurmu
Bu torpağın, bu daşın?
Şuşaya bayraq taxıb,
Sənin əsgər qardaşın.

Acı günlər iz qoyub
Ağrılı gənc yaşında
Yeni tarix yaradır
Millətin yaddaşında.

Topxana meşəsinin
Yaraları sağalıb.
Üçrəngli bayrağınız
Qarabağda ucalıb.

Ətirlənib bağçalar,
Bağlar da bar saxlayıb.
Yamaclar yaşıl xalı,
Zirvələr qar saxlayıb.

Yeni yollar çəkilir
Dağların zirvəsinə.
Qarabağın dostları
Səs verirlər səsinə.

Düşmənə göz dağıdı
Zirvədəki al bayraq.
Hər yer dönüb cənnətə
Yaddan çıxmaz Qarabağ.

Qarabağ ürəyimdi,
Azərbaycan bir candır.
Bütün dünya qoy bilsin..
Şuşa Azərbaycandır!

Bu çöl, çəmən bizimdir
Zirvələrdə qara bax!
Xarı bülbül oxuyur,
Çiçəklənir Qarabağ.

Mən də öz qələmimlə
Bu döyüşə atıldım,
Qırx dörd bəndlik yazımla
Zəfərlərə qatıldım!

***2020***